# ABŞ konqresi erməni lobbisinin himayədarı rolunda

## Bu gün Azərbaycan Prezidenti bütün türk dünyasının yükünü üzərinə götürərək erməni lobbiçiliyinə qarşı mübarizənin önündədir

## Məhz buna görə də onların əsas hədəfi Azərbaycan dövləti və onun rəhbəridir

**Prezident İlham Əliyevin hücum diplomatiyası və effektiv informasiya savaşı düşmən şəbəkənin bütün yeni təşəbbüslərini, cəhdlərini puç etməklə yanaşı, illərdir formalaşdırdığı təbliğat bazasını da əsaslı şəkildə zədələyib. Bu gün Azərbaycan və onun Prezidenti bütün türk dünyasının yükünü, demək olar ki, təkbaşına üzərinə götürərək dünyadakı erməni lobbiçiliyinə qarşı mübarizənin ön cərgəsində olduğu kimi, onların da əsas hədəfinə məhz Azərbaycan dövləti və onun rəhbəri Prezident İlham Əliyev çevrilib. Bu baxımdan dünya erməniliyi uzun illərdir sıx əməkdaşlıq, müttəfiqlik etdiyi antiazərbaycançı şəbəkə ilə birgə yeni həmlələrə başlayıb.**



Erməni lobbisinin hədəfi Dağlıq Qarabağ, antiazərbaycançı şəbəkənin hədəfi isə Azərbaycanın dövlətçiliyi, müstəqil siyasəti, təbii sərvətləri və şübhəsiz ki, bunların təminatçısı olan Liderdir. Azərbaycan son dövrlərdə ciddi "pressinq" altındadır. Hər tərəfdən dövlətimizi sıxmağa çalışır, ona addımbaşı maneələr yaradılır, beynəlxalq təşkilatlarda fəaliyyətimizə süni əngəllər törədilir. Birbaşa xarici xüsusi xidmət orqanlarından maliyyələşən saysız-hesabsız QHT-lər dünyanın bütün qlobal kataklizmlərini unudaraq, sanki planetin əsas problemi kimi Azərbaycanı göstərirlər. Bununla yanaşı, bəlli xarici KİV-lər məmləkətimizə qarşı yeni informasiya yürüşünə başlayıb. Eyni mərkəzlər tərəfindən hazırlandığı sübut edən oxşar tezislər, qondarma ittihamlar əsasında Azərbaycan və onun rəsmi şəxsləri haqqında qaralama kampaniyası aparılır.

Bu cür mürəkkəb durumda Azərbaycan ciddi sınaq qarşısındadır. Heydər Əliyev siyasi irsindən və Prezident İlham Əliyevin şəxsi xarakterindən, əzmkarlığından irəli gələn müstəqil siyasət konsepsiyasının qətiyyətlə davamlılığı Azərbaycanın hədəfə çevrilməsinin əsas səbəbidir. Azərbaycanın dövlət başçısı dəfələrlə bəyan edib ki, yürütdüyü müstəqil siyasət heç bir halda kənar diktəyə məruz qalmayacaq, xarici təsirlərə güzəştə getməyəcək! Hansısa tərəfin yanında olmaq, hansısa hərbi-siyasi cəbhədə yer almaq Azərbaycan iqtidarının əsla yol verməyəcəyi seçimdir. Bu, birmənalıdır, əslində, heç müzakirə predmeti də deyil!

Bu baxımdan indi Azərbaycan nəinki postsovet məkanının, ümumiyyətlə, dünyanın ən azsaylı müstəqil siyasətə malik dövlətlərindəndir. Ölkəmizdən tələb olunan güzəştlər isə yalnız müstəqil siyasətlə bağlı deyil, həm də enerji resurslarının ixrac marşrutlarının müəyyənləşməsindən tutmuş daxili siyasətədək bütün məsələlərdə fövqəlgücün maraqlarını təmin etməkdir. Azərbaycan Prezidentinin müstəqil siyasətdən əl çəkib, ölkənin müqəddəratını qonşu dövlətlərin acı taleyinə çevirməsi əsla mümkün olmayacaq! Buna görə də Azərbaycan təzyiq altındadır, bu səbəbdən ölkəmiz və siyasi rəhbərlik genişmiqyaslı şər kampaniyasına məruz qalır. Gerçəklik budur ki, Azərbaycanın gücü Prezidentlə xalqın birliyindən: xalqın iradəsindən-Prezidentin qətiyyətindən qidalanır.

Bəli, ABŞ Konqresi nəzdində fəaliyyət göstərən Helsinki Komissiyasının qeyri-ciddi sanksiyalarını nəzərdə tutan qanun layihəsi məhz belə mürəkkəb dövrdə ortaya çıxdı. Bu, həm Azərbaycanın müstəqil siyasətinə qarşı məlum şəbəkənin növbəti təzyiq cəhdi, həm də ABŞ-dakı seçki ərəfəsində erməni lobbisinin dəstəyini qazanmaq məqsədilə atılmış təbliğat addımıdır. Hər iki məqsəd bir-birini tamamlayır və Azərbaycana düşmənçilik xarakteri daşıdığını sübut edir. Yəni bu təzyiq vasitəsi heç də mövcud iqtidara qarşı deyil, tam əksinə, bütünlüklə dövlətimizə və xalqımıza yönəlmiş təxribatdır. Qeyd edək ki, federal hökumətin müstəqil agentliyi kimi fəaliyyət göstərən, Konqresin nəzdində olan və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Komissiyası adlanan bu qurum ABŞ-ın qanunverici orqanının hər iki palatasından 18 üzv və Dövlət Departamenti ilə Pentaqonun hərəsindən bir üzv olmaqla təşkil olunur. Bu 20 amerikalı 40 il öncə imzalanmış Helsinki Aktının icrasına nəzarət və bu müqaviləni imzalamış 57 ölkədə insan hüquqları, demokratiya sahəsində işlərə töhfə vermək kimi vəzifəyə məsuliyyət daşıdıqlarını iddia edirlər.

Qarabağ separatçılarına 25 ildir rəsmən maliyyə dəstəyi göstərib, onları silahlandırmaq, son həftədə isə ATƏT-in Minsk qrupuna təyin etdiyin həmsədrini bu separatçıların rəhbərliyi ilə görüşdürməkdirmi dövlətlərin ərazi bütövlüyü prinsipinə hörmət? Suriyada terrorçuları maliyyələşdirmək, radikal ekstremistləri silahlandırmaqdırmı münaqişələrin dinc yolla həll olunmasına çalışmaq? Türkiyədə kürd separatçılarına muxtariyyət tələb etmək, Ukraynadan hansısa rezidentinə vəzifə istəmək, digər ölkədən hərbi baza üçün ərazi şərti irəli sürməkdirmi bir-birinin daxili işlərinə qarışmamaq? Öz ərazində müsəlmanları təqib etmək, qaradərililərə divan tutmaq, latın amerikalıları əzmək, qanunsuz hərbi həbsxana yaratmaq, vətəndaşa işgəncəni hüquqi norma saymaqdırmı insan hüquqlarına və əsas azadlıqlara ehtiram? İstədiyin vaxt hansısa dövlətin bank hesablarına həbs qoymaq, sənə boyun əyməyən ölkələrin vətəndaşlarına sanksiya tətbiq etməkdirmi beynəlxalq müqavilə öhdəliklərini vicdanla yerinə yetirmək? Bəli, Helsinki müddəalarını ABŞ qədər pozan ikinci dövlət yoxdur! Əgər bu prinsiplərin pozulmasına görə hansısa sanksiya tətbiq etmək lazım gəlsəydi və onlara amerikasayağı cəza verilsəydi, son 40 il ərzində ABŞ rəsmilərini azı yüz min dəfə mühakimə etmək olardı. Amma bəxtləri gətirib ki, çarmıxa çəkmək, edam etmək, elektrik stulunda qətlə fərman vermək kimi cəza növləri də yalnız ABŞ-da qüvvədədir!

Bir məqama da nəzər salaq. Helsinki Komissiyası son üç ildə bir dəfə də olsun Ermənistanda, Gürcüstanda və digər postsovet ölkələrindəki durumu müzakirə etməyib. Qeyd edilən dövrdə təkcə Ermənistanda onlarla müxalifətçinin güllələnməsi, yüzlərlə etirazçının həbsi, prezidentliyə namizədin sui-qəsdə məruz qalması, prezident və parlament seçkilərinin total saxtalaşdırılması kimi faktlar baş verib. Amma buna rəğmən, son iki ildə Ermənistanla deyil, qərəzli şəkildə Azərbaycanla bağlı 10 dəfə müzakirə keçirilib. Bu da antiazərbaycançı fəaliyyətin növbəti isbatıdır.

ABŞ rəsmilərinin xeyir-duası ilə başladığı şübhə doğurmayan "Helsinki avantürası" Azərbaycana qarşı ittihamlar irəli sürüb. Ölkəmizdə insan hüquqlarının, söz azadlığının pozulması, dindarların təqib olunması, seçki məsələsi, həbsxanada məhbusların vəziyyəti kimi ənənəvi dedi-qodular, əsassız fikirlər bu dəfə də səslənib. Ən maraqlı cəhət odur ki, ortada bir əsaslı fakt, arqument yoxdur! Konkret cinayət hadisələrinə (vergidən yayınma, qanunsuz sənədlərin təşkili və s.) görə həbs edilən şəxslər ABŞ tərəfindən "siyasi məhbus" elan edilib. Bu adamların həbsinin siyasi motivli olmasını iddia etmək, ABŞ-ın həqiqətən də "demokratiya meyarı" olmağına inanmaq qədər ağılsızlıq olardı.

Bəli, bir milyona yaxın həmvətənimiz öz yurdlarında bütün sosial hüquqlarından məhrum edilib, öz torpaqlarına həsrət qalıblar. Təəssüf ki, onların bu hüquqlarını pozanlar bu gün "insan azadlıqlarının cəfakeşinə" çevrilən ABŞ-ın fəal dəstəyinə arxalanaraq, yüz minlərlə həmvətənimizi müsibətdə saxlayır. ABŞ bir milyon azərbaycanlının hüquqlarının pozulmasına görə elə separatçılar qədər məsuliyyət və günahkarlıq daşıyır! Öz doğma yurdlarını silahsız ziyarət edərkən əsir düşmüş Dilqəm Əsgərov və Şahbaz Quliyev 18 aydır ki, separatçıların həbsxanasında olmazın zülmlərini çəkirlər. Bu mülki şəxslərə qarşı törədilən işgəncələrin məsuliyyəti isə separatçılarla yanaşı, onların hər mənada himayədarı olan ABŞ rəsmilərinin də vicdanına yazılır!

Azərbaycanda keçirilən parlament seçkiləri kampaniyası dövründə və nəticələr elan ediləndən sonra bir konkret etiraz irəli sürə bilməyən, elementar nöqsan tapmayan ABŞ-ın bəlli qurumları bu gün dil açıblar. Amma əllərində nə bir fakt, nə də hüquqi sənəd var. Lakin iki həftə öncə Ermənistanda hakimiyyətin mənimsənilməsi məqsədilə keçirilən referendumun nəticələrinin ən ağlasığmaz üsullarla saxtalaşdırılması və bunu minlərlə fakta əsasən sübut edən müxalifətin mitinqlərinin davam etməsi kimi gözəgirən hadisəni görməzdən gələn ABŞ-ın Helsinki Komissiyası erməni havadarlarını qəzəbləndirməkdən qorxur! Demək, sabah Serj Sarkisyan ölkəsində monarxiya rejimi tətbiq etsə, Helsinki Komissiyası buna da etiraz bildirməyə cəsarət tapmayacaq! Ən təəssüfedici məqam budur ki, ABŞ Konqresinin müzakirəsinə verilən qanun layihəsində bədnam "907-ci düzəliş"ə qoyulan moratoriumun ləğvi də istənilir. Yəni, Helsinki Komissiyasının dili ilə ABŞ rəsmiləri Azərbaycanı "Dağlıq Qarabağ xalqına qarşı təcavüzə və Ermənistanı əsassız blokadada saxlamağa" görə ittiham edirlər!

Antiazərbaycançı şəbəkənin erməni lobbisinin dəstəyilə hazırladığı yeni avantüranın arxasında da, şübhəsiz ki, erməni barmağı dayanır. Amma bu dəfə həmin "barmaq" prosesləri kənardan idarə etmir, əksinə, proseslərin tam mərkəzində dayanaraq, qanun layihəsinin müəllifi kimi çıxış edir.

Kris Smit... Nyu-Cersi ştatının Konqresdə təmsilçisi. 62 yaşlı bu adam dəfələrlə siyasi əqidəsini, partiya mənsubiyyətini dəyişsə də, bir məsələdə daim prinsipial qalıb: erməni təəssübkeşliyi! Etiraf edib ki, bu xalqı uşaqlığından sevir. Siyasi olimpə də məhz bu sevgisi əsasında yüksəlib. ABŞ-da ermənilərin məskunlaşmasına görə dördüncü yerdə qərarlaşan Nyu-Cersidə məhz bu lobbinin dəstəyilə 24 ildir Konqresdə təmsil olunur.

Konqresə gəldiyi gündən etibarən antitürk mövqeyində dayanıb və "erməni soyqırımının" tanınması prosesinin əsas rəhbərlərindən birinə çevrilib. Bu mövzudakı bütün qətnamələrin, müraciətlərin ilk üçlüyündə məhz K.Smitin imzası olur. Təkcə bu il ərzində "erməni soyqırımı" ilə bağlı 5 qanunverici təşəbbüslə çıxış edib. ABŞ Prezidentinə, Konqresə, ictimaiyyətinə çoxsaylı müraciətlərində "erməni soyqırımını" Holokostdan da faciəli sayır, hər bir amerikalının bu "genosidi" tanımasına çalışacağını vəd edir. Onun rəsmi saytındakı məlumatların və şəkillərin, demək olar ki, yarısı məhz ermənilərlə əlaqəlidir. Dəfələrlə qürurla bildirib ki, o, ermənilərin ən böyük amerikalı dostudur. Ümumiyyətlə, bu konqresmen daim antiazərbaycançı mövqedə olub. Məsələn, 2008-ci ildə Ermənistanda prezident seçkilərində vətəndaşların güllələbaran edilməsinin Helsinki Komissiyasında müzakirəsini məcradan uzaqlaşdıraraq, əsas problemin etirazçıların ölümü yox, məhz "erməni soyqırımının" tanınmaması olduğunu bəyan edib. Yaxud dəfələrlə Azərbaycanı Dağlıq Qarabağ xalqını təhdid altında saxlamaqda, atəşkəsi pozmaqda və Ermənistana qarşı "militarist siyasətdə" günahlandırıb.

Bir sözlə, K.Smitin simasında biz dünya erməniliyinin ən böyük dəstəkçilərindən, daha doğrusu, buyruq qullarından birini görürük. Və o bu gün növbəti sifarişi yerinə yetirir: Azərbaycan dövlətinə və xalqına qarşı yönəlmiş qanun layihəsinin müəllifi kimi...

Görünən odur ki, Azərbaycana qarşı yürüdülən savaş yalnız ABŞ tərəfdən atılan "güllələrlə" məhdudlaşmayacaq. Belə ki, daha bir antiazərbaycançı qüvvə məşhur Torbyörn Yaqland da erməni lobbisindən sifariş alıb. Avropa Şurasının baş katibi Azərbaycanın Avropa İnsan Haqları Konvensiyasını necə yerinə yetirməsi üzrə rəsmi araşdırmaya başlayıb. Bəlkə də burada təəccüblü bir məqam olmazdı, əgər bu hüququndan Torbyörn Yaqland indiyədək istifadə etsəydi. Bəli, baş katib ilk dəfədir ki, buna əl atır. Əslində, rəsmi Bakı heç bir araşdırmadan narahatlıq keçirmir, əgər bu, obyektiv aparılsa. Yox, əgər Azərbaycandakı real durumu öyrənib, təhlil aparmadan Vaşinqtondan gələn təlimatlar əsasında Strasburqdan məlum bəyanatlar səslənəcəksə, - bunun əslində, belə olacağına zərrə qədər də şübhə yoxdur - demək, Avropa Şurası da artıq siyasi hərracdakı yerini bəlli edəcək.

**Elçin Zaman,**
***"İki sahil"***